https://doi.org/10.59849/3006-1342.2025.3.82
UOT 94(479.24)

*Elmin Mahir oğlu Məmmədli*
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu,*
*Azərbaycanın beynəlxalq əlaqələr tarixi şöbəsi*
*Doktorant*
*E-mail:* mammadlielmin@gmail.com
https://orcid.org/0009-0008-7817-5122

# QAFQAZ ALBANİYASI VƏ İBERİYA ÇARLIĞI TARİXİNİN BƏZİ MƏSƏLƏLƏRİ YERLİ QAYNAQLARDA ("KARTLİS TSXOVREBA" MATERİALLARI ƏSASINDA)

*Cənubi Qafqaz ölkələrinin - Albaniya və İberiyanın qədim dövr tarixinin öyrənilməsi, ətraflı tədqiq və təhlil olunmasında ilkin mənbələrin əhəmiyyəti heç bir şübhə doğurmur. Bölgənin qədim dövr tarixi üzrə mənbələrin mühüm bir qismi antik yunan və Roma tarixçi və coğrafiyaçılarının - Heredot, Ksenefont, Strabon, Böyük Plini, Klavdi Ptolomey, Dion Kassi, Korneli Tasit, Polibi, Plutarx və s. müəlliflərin əsərlərindən ibarətdir. Albaniya və İberiya tarixinin bir sıra məsələləri həmçinin qədim gürcü, alban və ermənidilli qaynaqlarda da öz əksini tapmışdır. Antik qaynaqlarla müqayisədə qədim gürcü, alban və ermənidilli yazılı mənbələr xronoloji baxımdan nisbətən gec formalaşdığından bu mənbələrin Albaniya və İberiya dövlətlərinin miladdan öncəki və miladın ilk əsrləri haqqındakı məlumatlarının səhihliyini ciddi elmi araşdırmalar və müqayisəli təhlillər aparmadan qəbul etmək mümkün deyil. Təqdim olunan araşdırmaya "Kartlis Tsxovreba" salnamələr külliyyatının cəlb olunması təsadüfi deyildir. Bu salnamələr Gürcüstan tarixşünaslığında geniş araşdırma obyektinə çevrilib, və o cümlədən. Azərbaycan tarixşünaslığında Albaniyanın qədim dövr tarixinin bir sıra araşdırmaçılarının da diqqətində olub. Bu mənada təqdim olunan məqalənin elmi əhəmiyyəti və aktuallığı xüsusi önəm daşıyır.*

*Açar sözlər:* Qafqaz Albaniyası, İberiya, Kartlis Tsxovreba, antik dövr, yerli qaynaqlar

*Giriş*

"Kartlis Tsxovreba" salnamələr külliyyatına daxil olan 10 salnamənin əksəriyyəti xronoloji baxımdan VIII-XIII əsrlər tarixini əks etdirsə də, onların əsasən ikisi, qismən olsa da biri Gürcüstanın antik və ilk orta əsrlər tarixinə həsr olunmuşdur. Bu salnamələr içərisində araşdırılan dövr üzrə xüsusi elmi əhəmiyyətə malik olan Leonti Mrovelinin qələmə aldığı iki hissədən - "Gürcü çarlarının həyatı" və "Müqəddəs Ninonun Kartlini dinə gətirməsi" [11, s. 13–75] və Cuanşer Cuanşerianinin müəllifi olduğu "Vaxtanq Qorqasalın həyatı" [9, s. 75-135] adlı salnamələrdir. Bu salnamələrdə Makedoniyalı İsgəndərin Şərqə yürüşündən başlayaraq VI əsrin əvvəllərinə qədər qədim Gürcüstan ərazisində, həmçinin qismən də olsa tarixi Azərbaycan ərazisində baş vermiş siyasi, sosial-iqtisadi və mədəni-ideoloji proseslərə yer verilmişdir. "Kartlis Tsxovreba" külliyyatına daxil olan Sumbat Davitsidzenin qələmə aldığı "Baqrationilərin tarixi və hekayəsi" adlı salnamədə isə əsas diqqət Baqrationilər sülaləsinin tarixinə yer verilsə də, Gürcüstanın qədim dövr tarixinə də qısa ekskurs edilmişdir [14, s. 221-243].

**Mənşə problemi.** Mroveli Leontinin "Gürcü çarlarının həyatı" salnaməsində diqqət çəkən məsələlərdən biri bəzi Cənubi Qafqaz xalqlarının mənşəyi problemidir. Salnamənin məlumatına əsasən erməni, kartvel, mokvan, er, ran, lek, meqrel və kavkasionların ulu babası olan Tarqamos Tarşın oğlu Nuh peyğəmbərin oğlu Yafətin nəvəsi olmuşdur [11, s. 13]. Salnamədə adlı çəkilən ran, movkan, er və leqlərin qədim alban tayfalarından olması heç bir

şübhə doğurmur. 600 il yaşadığı vurğulanan Tarqamosun öz tayfası ilə Ararat və Masis dağları arasındakı torpaqlarda məskunlaşması, ona məxsus ölkənin sərhədlərinin şərqdə Qurqan dənizi, qərbdə Pont dənizi, cənubda Oreti və şimalda Qafqaz dağlarına qədər uzandığı göstərilmişdir [11, s. 13]. Qaynaqda adı keçən Oreti dağının lokalizəsi dəqiq bəlli olmasa da, onun Tavr dağları olması ehtimalı mövcuddur. Mroveli Leontinin yazdığına görə Tarqamosun oğlanları içərisində səkkizi - Xaos, Kartlos, Bardos, Movakan, Lek, Eros, Kavkas və Eqros daha igid və məşhur olmuş və Tarqamos ölkəsini oğlanları arasında belə bölüşdürmüşdü: Tarqamos tayfasının yarısını, ən yaxşı torpaqlarının yarısını Xaosa vermişdi. Tarqamos şərqdə Ereti və Berduci, qərbdə Pont dənizi, cənubda Berduci çayının yuxarı axarları boyunca uzanan dağ, şimala doğru axaraq Kür çayı ilə qovuşan çay ətrafındakı torpaqları, Klarçeti və Tao ilə dəniz arasında yerləşən əraziləri, şimal istiqamətində isə Qado və Qafqaz dağlarının bir silsiləsi olan və hazırda Lixi adlanan dağa qədərki torpaqları Kartlosa vermişdir [11, s. 13-14]. Salnaməyə görə Tarqamos oğlu Bardosa Kürün cənub tərəfindəki torpaqları, Berduci çayından Kür və Araz çaylarının qovuşduğu əraziləri vermiş və o, Bərdə şəhərini salaraq orada məskunlaşmış, digər oğlu Movakana Kürün şimal tərəfindəki, Kiçik Alazan çayından dənizə qədərki torpaqları miras vermiş və o da Movakneti şəhərini saldırmışdı [11, s. 14]. Kürün şimal tərəfində, Kiçik Alazan çayından hazırda Qulqula adlanan Tketba arasındakı torpaqlar Erosa verilmiş və iki Alazanın qovşağında tikdirdiyi şəhər onun şərəfinə Ereti adlandırılmış, Eqrosa isə dəniz sahilindəki torpaqlar - şərqdə Lixi dağları, qərbdə dəniz, şimalda Kiçik Xəzər çayı ilə sərhədləşən ərazilər verilmiş və şərəfinə Eqrisi şəhəri salınmışdı [11, s. 14].

Qədim gürcü salnaməsinə görə Tarqamos oğlu Lekə Dərbənd dənizindən Lomek çayına qədərki, Kavkasa isə Lomek çayından qərbdə Qafqaz dağlarının sonuna qədərki torpaqları miras qoymuşdu [11, s. 14]. Göründüyü kimi Tarqamosun səkkiz oğlundan dördü Bardos, Movkan, Eros, və Lek qədim alban tayfalarının ulu babaları olmuş və Tarqamosun onlara miras qoyduğu torpaqlar isə tarixi Albaniya dövlətinin ərazilərini əhatə etmişdi. Maraqlıdır ki, qədim gürcü salnaməsinin məlumatları Bərdə şəhərinin salınması haqqında tarixşünaslıqda özünə yer tapmış mülahizələrin xeyli qədimiləşdirməsini söyləməyə imkan verir. Belə ki, vətən tarixşünaslığında Bərdə şəhərinin Sasani hökmdarı Peroz (Firuz 459–484) tərəfindən salınması və bir müddət onun şərəfinə Perosapat adlandırılması haqqında iddialar öz əksini tapmışdır [1, s. 64].

"Gürcü çarlarının həyatı" salnaməsi ilə müqayisədə Moisey Kalankatuklunun "Albaniya tarixi"ndə alban və iberlərin soykökü ilə bağlı bir qədər fərqli rəvayət verilmişdir. Belə ki, salnaməçinin yazdığına əsasən, Yafəsin 7 oğlundan biri olan Firas frakiyalıların cəddi olmuş və onun oğlanlarından biri Əşkinaz sarmatların, Rifat savromatların, Foqarma isə ermənilərin ulu babası olmuşdur [6, s. 17]. M.Kalankatukluya görə, Yafəsin oğlu İaranın oğlanlarından biri olan Farsis gürcülərin və turanlıların ulu babasıdır [6, s. 17].

Maraqlıdır ki, M.Kalanankatuklu gürcü salnaməsindən fərqli olaraq albanların soykökünü Yafəsin başqa bir oğlu ilə bağlayaraq yazır: "Cəmisi 15 xalqdır. Bunlardan üçü yerlərini atıb, bütpərəst adalarına səpələndilər. Bunlar Yafəsin oğullarından olan ketarilərin nəsillərindən olan kipirlilər və şimalda ketarilərlə qohum olan xalqlar idilər və albanlar da məhz bunların nəslindəndir" [6, s.17].

Alban salnaməsi yazıya malik olan xalqların sırasında romalılar, ispanlar, midiyalılar, ermənilər və albanların da adlarını xatırladaraq Yafəs nəslinə məxsus olan torpaqların dünyanın "qərb və albanlar yaşayan hissəsini, Xəzər dənizi yerləşən şimal hissəsini" əhatə etdiyini göstərmişdir [6, s. 18].

Diqqət çəkən məsələlərdən biri odur ki, qədim gürcü salnaməsi gürcü və albanların ulu əcdadlarını Yafəsin oğlu Firasdan olan nəvəsi Tarqamasla bağladığı halda M.Kalankatuklu iberlərin soykökünü Yafəsin oğlu İvanın oğlu Farsislə, ermənilərin kökünü Yafəsin oğlu

Firasın oğlu Foqarma, albanların soykökünü isə Yafəsin oğullarından olan ketarilərlə bağlayaraq bir birlərindən fərqləndirilmişdir. “Gürcü çarlarının həyatı” salnaməsində Yafəsin nəvəsi, Tarsın oğlu kimi qeyd olunan Tarqamos M.Kalankatuklunun əsərində Yafəsin nəvəsi və Farsisin oğlu Foqarma kimi təqdim olunmuşdur.

M.Xorenlinin “Ermənistan tarixi” əsərində ermənilərin soykökü də Tarqamos və ya Foqarma ilə bağlanılsa da, onların geneologiyası həm qədim gürcü salnaməsi, həm də “Albaniya tarixin”dən bir qədər fərqli şəkildə təqdim olunmuşdur. Belə ki, M.Xorenlinin yazdığına görə Yafət Hameri, Hamer Tirası, Tiras Torqomu, Torqom Haykı, Hayk Aramaneakı, Armaneak Aramaisi, Aramais Amasiyi, Amasiy Qelamı, Qelam Xarmi, Xarm Aramı, Aram isə Aranı dünyaya gətirmişdir [15, s. 12]. Beləliklə M.Xorenliyə görə ermənilər Torqomun oğlu Hayki özlərinin ulu əcdadı hesab edirdilər. Nəticədə qədim gürcü, alban və erməni qaynaqlarında müəyyən fərqliliklərlə gürcü alban və erməni xalqlarının soykökü Yafəsin varisləri ilə əlaqələndirilmişdir.

**İberiya çarlığının yaranması.** Qədim gürcü salnamələrində əksini tapmış maraqlı problemlərdən biri də İberiya dövlətinin meydana çıxması məsələsidir. Bir qayda olaraq tarixşünaslıqda Albaniya və İberiya dövlətlərinin meydana çıxması Makedoniyalı İsgəndərin Şərq yürüşü dövrü və yaxud İsgəndər imperiyasının parçalanması ilə əlaqələndirilir [12, s. 164-167; 2, s. 385-389].

Məlum olduğu kimi, ən azından I Daranın hakimiyyəti dövründən etibarən (522-486) Cənubi Qafqaz xalqının hamısı olmasa da bir qismi Əhəməni imperatorluğunun tərkibinə daxil edilmişdi. Bu faktı Əhəməni satraplıqlarını təsvir edən Herodotun Arazdan şimaldakı torpaqlarda müq, uti, kaspi, skif, saka, massaget tayfalarının adlarının xatırlatması da təsdiq edir [8, s. 70-80; s. 167-170]. Tarixi Albaniya ərazisi kimi İberiya ərazisinin də bir hissəsinin bu imperatorluğa daxil olduğunu söyləməyə müəyyən əsaslar vardır. Belə ki, Herodotun ildə Əhəməni xəzinəsinə 200 gümüş talant vergi verən 18-ci satraplığın tərkibində bir sıra etnoslarla yanaşı adını çəkdiyi saspet tayfalarının şərqi gürcü tayfalarından olması məlumdur [8, s. 169–170]. III Daranı məğlub etdikdən sonra Makedoniyalı İsgəndər Əhəməni imperatorluğunun bütün torpaqlarını ələ keçirməyə başlamış və qədim gürcü salnaməsinə görə, onun yürüşü Cənubi Qafqazdan da yan keçməmişdir. Leonti Mrovelinin məlumatına əsasən İsgəndər Qafqazı aşaraq Kartliyə gəlmiş, Kür çayı sahilində bütpərəst qəddar buntürklər və qıpçaqlarla qarşılaşmış, onları məhv etmək istəsə də, şəhər və qalaların möhkəm müdafiə olunduğunu görərək fikrindən daşınmışdı [11, s. 20]. Son dövrlərdə Gürcüstanda buntürklərin məskunlaşması məsələsi E. Bəkirovanın da tədqiqatlarında araşdırma obyektinə çevrilmiş, bu problemin tarixşünaslığı və real tarixi gerçəkliyə uyğunluğu ilə bağlı maraqlı fikirlər səsləndirilmişdir [4, s. 3-8].

Mənbənin məlumatına görə, İsgəndər gücləndikdən, bütün dünyanı fəth etdikdən sonra yenidən Kartliyə qayıdaraq Msxetada düşərgə salaraq şəhər və qalaları mühasirəyə almışdı. Digər şəhərləri 6 ay içərisində fəth etsə də, buntürklər Sarkine şəhərində İsgəndərə qarşı 11 ay müqavimət göstərmiş, onlar qayaları yararaq mühasirədən çıxıb Qafqaz dərəsinə çəkilərək xilas olmağı bacarmışdılar [11, s. 20-21]. Gürcü çarlarının həyatı salnaməsində əksini tapmış bu məlumat bir qədər fərqli olsa da “Mokçevay Kartesiay” salnaməsində də qeydə alınmış, buntürklərin Kür sahilindəki dörd Sarkine, Kaspi, Urbnisi və Odzraxe şəhər və qalalarında məskunlaşdığı qeyd olunmuşdur [12, s. 162]. Gürcü qaynaqlarında əksini tapmış bu məlumat iki aspektdən maraq doğurur:

1. Makedoniyalı İsgəndər Cənubi Qafqazda olub olmaması?
2. Buntürk və qıpçaqların Gürcüstan tarixində yeri.

Qeyd etmək lazımdır ki, İsgəndərin Qafqazda olması ilə bağlı qaynaqlarda, həmçinin tarixşünaslıqda fərqli fikir və mülahizələr mövcuddur. İsgəndərin Qafqazda olması haqqındakı məlumatların qədim gürcü salnaməsində, ərəb salnaməçisi Əbu Cəfər Məhəmməd

ət-Təbərinin (838-923) "Tarix ər-Rüsul və və-l-Mülük" əsərində, həmçinin Nizami Gəncəvinin "İsgəndərnamə" əsərində əksini tapması [5, s. 309-310] antik tarixçi və coğrafiyaçıların şəhadətinə söykənir. Belə ki, Strabon Klitarxa istinad edərək İsgəndərin Qafqazda yaşayan amazonkaların çarı Falestiri ilə evlənməsi, onun Qafqaz qapılarından İsgəndərin hüzuruna gəlməsini qeydə almışdır [13, s. 478-479]. Digər antik yazar Arrian da Erotosfenə istinad edərək Prometey əfsanəsi ilə əlaqədar İsgəndərin Qafqaz dağlarında olması məsələsini qələmə almışdır [7, s. 515-516]. Sicilyalı Diodor da İsgəndərin Besi təqib edərkən Qafqaza gəlib çıxması, burada Aleksandiriya adlı şəhər və ya düşərgə salınmasını göstərmişdir (11, 309). Doğrudur, Strabon və Arrian qədim yazarların bu məlumatlarına müəyyən şübhə ilə yanaşdıqlarını gizlətməmiş, onların bunu İsgəndərin şöhrətini daha da şərəfləndirmək üçün etdiklərini vurğulamışdır. Fikrimizcə, hər bir rəvayətin, əfsanənin kökündə də bir həqiqət vardır. Makedoniyalı İsgəndərin Nisay düzündə Atropatla görüşməsi, Xəzər dənizinin tədqiqi üçün Heraklid ekspedisyasını göndərməsi danılmaz tarixi faktdır [7, s. 517–518]. Bütün bunlar İsgəndərin Qafqazla yaxından maraqlandığını göstərməklə yanaşı, onun regionda olması ehtimalını da gücləndirir.Bununla belə, bu faktın isbatı üçün yeni dəlillərin ortaya çıxarılmasına da ehtiyacın olması zərurəti yaradır. Maraqlıdır ki, tanınmış tarixçi S. Əliyarlı "İsgəndərnamə tarixi baxımdan" adlı araşdırmasında İsgəndərin Qafqazda olmasını bir rəvayət, əfsanə kimi dəyərləndirsə də [5, s. 309–310], digər əsərində İsgəndərin Gürcüstanda buntürklərlə qarşılaşmasını tarixi fakt kimi göstərməklə bir növ özü özünü təkzib etmiş vəziyyətdə salmışdır [3, s. 168–169].

Qədim gürcü səlnaməsində qeydə alınan İsgəndərin Kartlidə - Kür sahilində buntürk və qıpçaqlarla qarşılaşması haqqında məlumat tarixi baxımdan olduqca önəmli faktır. Buntürk və qıpçaqların türk mənşəli tayfalar olması tarixşünaslıqda sübuta ehtiyacı olmayan bir məsələdir. Qaynaqda əksini tapmış bu məlumat türklərin Cənubi Qafqaza sonradan gəlməsini təkzib etməklə yanaşı, buntürk və qıpçaqların tarixi Gürcüstanın oborigen,köklü yerli etnoslarından biri olmasının tutarlı göstərisidir.Bu faktı ötən əsrin əvvəllərində gürcü tarixçisi S.Ü.Takayşvili də etiraf edərək buntürklərin "Turanlı" olmasını vurğulamışdır [3, s. 168]. " Gürcü çarlarının həyatı"səlnaməsindəki məlumatlar göstərir ki, Kartlinin ən qədim sakinləri kimi qeydə alınan buntürklər və qıpçaqlar say baxımından böyük qüvvə təşkil etmişdir. Əks tədqirdə onların Sarkine şəhərində İsgəndərin ordusuna qarşı 11 ay müqavimət göstərməsi mümkün ola bilməzdi. S. Əliyarlı gürcü salnaməsinin qədim əlyazmalarından birinə istinad edərək Kartlidə məskunlaşan buntürklərin 28 000 ailədən ibarət olmasına xüsusi diqqət yönəltmişdir. Müasir tarixşünaslıqda bir ailənin orta hesabla beş nəfərdən ibarət olmasının qəbul edilməsi nəzərə alınarsa, 28000 buntürk ailəsinin 140000 nəfərdən ibarət olması ortaya çıxır ki, bu da o dövr üçün çox böyük bir rəqəm hesab olunmalıdır [3, s. 168]. Maraqlıdır ki, gürcü tarixçisi B. İ. Kilanava Gürcüstanın əsas etno tarixi leksemləri olan İber-i və Eqer-i sözlərinin türk mənşəli olduğunu, bu toponimlərin semantika baxımından kartvel-i ilə bir mahiyyət daşıdığını müəyyən etmişdir [3, s. 169]. Müasir gürcü tarixçiləri ötən əsrdə sərgilədikləri mövqelərindən xeyli uzaqlaşaraq qədim gürcü salnaməsində qeydə alınan qıpçaqları anaxranizim kimi dəyərləndirməyə,buntürkərin izini isə Gürcüstanın coğrafiyasından silməyə çalışırlar. Akademik R. Metrevelinin redaktorluğu altında çap olunan Kartlis Tsxovrebasın son nəşrində Kartlidə qeydə alınan buntürklərin 28000 deyil, 28 ailədən ibarət olduğunun göstərilməsi tarixi qaynağın saxtalaşdırılmasının bariz nümunəsindən başqa bir şey deyildir [11, s. 19].

"Gürcü çarlarının həyatı" salnaməsində İberiyada dövlətin yaranması da İsgəndərin cənubi Qafqaza yürüşü ilə əlaqələndirilmişdir. Salnamənin məlumatına görə, İsgəndər Kartlini ələ keçirdikdən sonra onun idarəsini əslən Makedoniyadan olan öz soydaşı Yarodsun oğlu Azona həvalə etmiş, Azon isə Eretidən Berudji çayına və Speri dənizinə qədər bütün Kartlinini, həmçinin Eqrisini də ələ keçirərək ovslar, lek və xəzərlər üzərinə vergi qoymuşdur

[11, s. 21]. Azonun yerli əhaliyə qarşı qəddar yanaşması ona qarşı ciddi narazıçılığa səbəb olmuş və Azona qarşı mübarizəyə ata tərəfdən Kartlinin əsasını qoyanlardan, ana tərəfindən İsfahan farslarından olan Farnavaz başçılıq getmişdir. Farnavaz öz qüvvələrini Eqrisi hakimi Kudji ilə birləşdirərək Azona qarşı mübarizəyə başlamış, duruş gətirə bilməyən Azon Mısxetini tərk edərək Klarcetiyə qaçmağa məcbur olmuşdur. [11, s. 21-23] Klarceti istisna olmaqla bütün Kartlini ələ keçirən Farnavaz öz qüvvələrini Kudjinin, Antioxiya hakimi və ovsların dəstələri ilə gücləndikdən sonra Artani yaxınlığıda Azon üzərində qəti qələbə çaldıqdan sonra İberiya çarlığının əsasını qoymuşdur [11, s. 21-23; 10, s. 781-782]. Qədim gürcü salnaməsində Farnavaz və Azon arasındakı qarşıdurmanın vaxtı göstərilməsə də, bəhs olunan hadisənin Antioxiya hakimi ilə əlaqələndirilməsi bu faktın Selevki hökmdarı I Antioxun (324-261) dövründə baş verməsini söyləməyə imkan verir. Beləliklə, İberiya çarlığının təqribən e. ə. IV əsrin sonu - III əsrin əvvəllərində yaranması qənaətinə gəlmək mümkündür. Bu çarlığın yaranmasında aparıcı rolu daxili qüvvələr oynasa da, Selevki hökmdarının yardımı da mühüm əhəmiyyət kəsb etmişdi. Gürcü salnaməsi bu məqama toxunaraq açıq-aydın yazır ki, Farnavaz Asurastan çarı Antioxa elçi göndərərək çoxlu hədiyyələr vermiş, yunanlara qarşı kömək müqabilində ona xidmət edəcəyi vədini də vermişdi [11, s. 23]. Mənbənin məlumatına əsasən Selevki hökmdarı Antiox Farnavazın xahişini həvəslə qəbul edərək onu öz oğlu adlandırmış, ona tac göndərmiş və Armeniyanı idarə edən canişinlərinə Farnavaza yardım göstərmək tapşırığını vermişdi. [11, s. 23]. Q.A.Melikişvili İberiya çarlığının yaranmasında Selevki dövlətinin rolunu, həmçinin Farnavazın Selevkilərdən asılılığını etiraf etdiyi halda [10, s. 282]. V.Çelidzenin I Antioxla Farnavaz arasındakı razılaşmanı bərabərhüquqlu dövlətlər arasında müqavilə kimi təqdim etməsi ən azından tarixi faktların saxtalaşdırılması kimi dəyərləndirilməlidir [16, s. 68].

*Nəticə*

Araşdırmalar göstərir ki, “Kartlis Tsxovreba” külliyatına daxil olan Mroveli Leontinin “Gürcü çarlarının həyatı”, Cuanşer Cuanşerianın “Vaxtanq Qorqasalın həyatı” və qismən də Sumbat Davitsidzenin “Baqrationilərin tarixi və hekayəsi” salnaməsində Cənubi Qafqazın antik dövrü haqqında bəzi maraqlı məlumatlar öz əksini tapmışdır. Bu məlumatların bir qismi əfsanə və rəvayət xarakteri daşısa da, real tarixi gerçəklikləri də ehtiva edən faktlar da mövcuddur. Gürcü salnamələrində alban, iber və ermənilərin mənşəyi ilə bağlı məlumatların kökü “İncilə” söykənməsinə rəğmən, M.Kalankatuklu və M.Xorenlinin bu barədə məlumatları ilə qismən uzlaşır.

Qədim gürcü qaynaqlarında Gürcüstanın ən qədim əhalisi sırasında buntürklərin və qıpçaqların xatırlanması, onların bölgədə İsgəndərdən öncə qeydə alınması xüsusi ilə önəmlidir. Gürcü salnaməsində İberiya çarlığının Makedoniyalı İsgəndərin Şərq yürüşü zamanı və ya onun ölümündən sonra yaranması tarixi reallıqlara uyğundur. Gürcü salnaməsində Albaniya dövlətinin yaranması ilə bağlı məlumatlar olmasa da, digər qaynaqlar - antik mənbələr və artefaktlar bu dövlətin də İsgəndərin yürüşü ərəfəsində və ya onun ölümündən sonra yaranmasını söyləməyə tutarlı əsaslar verir.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: “Çıraq”, 2007, 400 s.
2. Azərbaycan tarixi. Yeddi clddə: I cild (ən qədimdən - b.e. III əsri). Bakı: Elm, 1998, 476 s.
3. Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər) / Redaktor prof. S.S.Əliyarlı. Bakı: “Azərbaycan nəşriyyatı”, 1996, 872 s.
4. Bəkirova E. Antik Yunan-Roma və orta əsr gürcü mənbələrinin müqayisəsində buntürklər // AMEA-nın Tarix İnstitutunun Elmi əsərləri, cild 36–37, 2011, s. 3-8.

5. Əliyarlı S.S. "İsgəndərnamə" tarixi baxımdan - Tariximiz açıqlanmamış mövzuları ilə. Bakı: Mütərcim, 2012, s. 304–327.
6. Kalankatuklu Moisey. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı: "Avrasiya press", 2006, 296 s.
7. Арриан. Анабасис. Поход Александра Великого / Известия древних писателей греческих и латынских о Скифии и Кавказе Собр.и изд. русским переводом В.В. Латышев. Т. I. СПб., 1890, с. 513-600.
8. Геродот История в девяти книгах / Перевод и примечания Г.А. Стратановского. Л.: «Наука», 1972, 602 с.
9. Джуаншер Джуаншерани. Жизнь Вахтанга Горосала. Картлис Цховреба («История Грузии») / Под ред. акад. Р.Метревели. Баку: Издательский дом «East-West», 2012, с. 75-135.
10. Меликишвили Г.А. К истории древней Грузии. Тбилиси: Из-во АН Грузинской ССР, 1959, 507 с.
11. Мровели Л. Картлис Цховреба («История Грузии») / Под ред. акад. Р.Метревели. Баку: Издательский дом «East-West», 2012, с. 13-75.
12. Очерк истории Грузии в восьми томах. Т.1. Тбилиси: Издательство «Мецниереба», 1989, 309 с.
13. Страбон География в 17 книгах / Перевод, статья и комментарии Г.А. Стратоновского. М.: Издательство «Наука», 1964, 957 с.
14. Сумбат Давитис-дзе. История и повествование о Баргатионах. Картлис Цховреба («История Грузии») / Под ред. акад Р.Метревели. Баку: Издательский дом «East-West», 2012, с. 221-243.
15. Хоренаци Мовсес. История Армении / Пер. с древнеарм.яз., введение и примечания Г. Саркисяна. Ереван: Айастан, 1990, 291 с.
16. Челидзе В. Исторические хроники Грузии / Пер. с грузинского А.Беставашвили. Тбилиси: Из- во «Мерании», 1980, 456 с.

УДК 94(479.24)

*Эльмин Махир оглы Мамедли*
*Институт Истории и Этнологии,*
*Национальная Академия Наук Азербайджана*

## НЕКОТОРЫЕ ВОПРОСЫ ИСТОРИИ КАВКАЗСКОЙ АЛБАНИИ И ИБЕРИЙСКОГО ЦАРСТВА В МЕСТНЫХ ИСТОЧНИКАХ (ПО МАТЕРИАЛАМ «КАРТЛИС ЦХОВРЕБА»)

*РЕЗЮМЕ*

*Ключевые слова:* Кавказская Албания, Иберия, Картлис Цховреба, античный период, местные источники

Важность первоисточников для изучения, подробного исследования и анализа древней истории стран Южного Кавказа - Албании и Иберии - не вызывает сомнений. Значительная часть источников по древней истории региона состоит из трудов античных греческих и римских историков и географов, таких как Геродот, Ксенофонт, Страбон, Плиний Старший, Клавдий Птолемей, Дион Кассий, Корнелий Тацит, Полибий, Плутарх и др. Ряд вопросов истории Албании и Иберии также нашёл отражение в древних грузинских, албанских и армянских источниках. В сравнении с

античными источниками, древние грузинские, албанские и армянские письменные источники формировались хронологически относительно позже. В связи с этим достоверность их сведений о дохристианском периоде и первых веках нашей эры в истории государств Албании и Иберии не может быть принята без серьёзных научных исследований и сравнительного анализа. Привлечение к данному исследованию сборника летописей «Картлис Цховреба» не является случайным. Эти летописи стали предметом обширных исследований в грузинской историографии, а также находились в центре внимания ряда исследователей древней истории Албании в азербайджанской историографии. В этом смысле научное значение и актуальность представленной статьи имеют особую важность.

UDC 94(479.24)

*Elmin Mahir Mammadli*
*Azerbaijan National Academy of Sciences Institute of History and Ethnology*

SOME ISSUES IN THE HISTORY OF CAUCASIAN ALBANIA AND THE KINGDOM OF IBERIA IN LOCAL SOURCES (BASED ON MATERIALS FROM “KARTLIS TSKHOVREBA”)

*SUMMARY*

*Keywords:* Caucasian Albania, Iberia, Kartlis Tsxovreba, antiquity, local sources

The importance of primary sources in the study, detailed investigation, and analysis of the ancient history of the South Caucasian countries - Albania and Iberia – is indisputable. A significant portion of the sources on the ancient history of this region consists of the works of ancient Greek and Roman historians and geographers, including Herodotus, Xenophon, Strabo, Pliny the Elder, Claudius Ptolemy, Dio Cassius, Cornelius Tacitus, Polybius, and Plutarch. A number of issues related to the history of Albania and Iberia are also reflected in ancient Georgian, Albanian, and Armenian sources. Compared to the classical sources, the ancient Georgian, Albanian, and Armenian written sources were chronologically formed relatively later. Therefore, the reliability of their information regarding the pre-Christian and early Christian centuries of the Albanian and Iberian states cannot be accepted without serious scientific research and comparative analysis. The inclusion of the “Kartlis Tskhovreba” chronicle collection in this study is not coincidental. These chronicles have become a subject of extensive research in Georgian historiography and have also been the focus of several researchers of ancient Albanian history in Azerbaijani historiography. In this sense, the scientific significance and relevance of the present article are of particular importance.

***Daxil oldu: 29.09.2025-ci il***